Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

III
CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2017

## OSMAN HACIBƏYOV

*(18.2.1924, Şuşa – 4.6.1979, Bakı). Aktyor.*



Müxtəlif xarakterli, hətta psixoloji cəhətdən ziddiyyətli rollarda çıxış edib. Komik rollarda ölçü hissini məharətlə qoruya bilib.

Osman İsmayıl oğlu Hacıbəyov on yaşında olanda atasının əmisi oğlu Üzeyir bəy Hacıbəyli onu Bakıya gətirib. Yeddinci sinfi bitirdikdən sonra 1939 – 1942-ci illərdə Mirzə Fətəli Axundzadə adına Bakı Teatr Məktəbində təhsil alıb. Tələbə ikən Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında kütləvi səhnələrdə çıxış edib. Təhsilini başa vuraraq təyinatla bu teatra göndərilib. Səməd Vurğunun «Komsomol poeması» əsasında İsgəndər Coşqunun yazdığı eyniadlı pyesin tamaşasında Bəxtiyar rolunun ifasına görə 1967-ci ildə Respublika Lenin komsomolu mükafatı laureatı adına layiq görülüb. 25 dekabr 1969-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif edilib.

*İfa etdiyi əsas rollar:* İsgəndər xan («Ağa Kərim xan Ərdəbili», Nəcəf bəy Vəzirov), Skapen («Skapenin kələkləri», Jan Batist Molyer), Əliqulu («Tamahkar», Süleyman Sani Axundov), Tarverdi, Şahbaz bəy («Xırs quldurbasan» və «Müsyö Jordan və dərviş Məstəli şah», Mirzə Fətəli Axundzadə), Protey, Tibalt («İki veronalı» və «Romeo və Cülyetta», Uilyam Şekspir), Florindo Aritun («İki ağanın bir nökəri», Karlo Qoldoni), Fərhad («Bəxtsiz cavan», Əbdürrəhim bəy Haqverdiyev), Keykavus («Söhrab və Rüstəm», İsgəndər Coşqun), Polkovnik Ferrari («Ovod», Etel Voyniç), Yaşar («Yaşar», Cəfər Cabbarlı), Oruc, Yasir («Qaraca qız» və «Bir saatlıq xəlifə», Abdulla Şaiq), Şamdan bəy («Şamdan bəy», Nəriman Nərimanov), Aqil («Aqil və Sərvinaz», Əyyub Abbasov), İmran, Nəsrəddin («Anacan» və «Nəsrəddin», Yusif Əzimzadə), Şirinbala («Şirinbala bal yığır», Salam Qədirzadə), Qəmküsar («Yarımçıq şəkil», Adil Babayev), Elşən, Mir Bəşir ağa («Çiçəkli dağ» və «Rübailər aləmində», Məmmədhüseyn Təhmasib), Etibar («Etibar», Rauf İsmayılov), Ağa Rəşid («Bir gəncin manifesti», Mir Cəlal), Zeynalabdin Şirvani («Əlvida, Hindistan», Qeybulla Rəsulov), Müküş («Mənim nəğməkar bibim», Əkrəm Əylisli), Zevs («Zəncirlənmiş Prometey», Cahangir Məmmədov).

Osman Hacıbəyov «Azərbaycanfilm» kinostudiyasında istehsal olunmuş «O olmasın, bu olsun» bədii filmində epizod Tələbə roluna çəkilib.

***«Xırs quldurbasan», Mirzə Fətəli Axundzadə.***
*Tarverdi – Osman Hacıbəyov*



***«Anacan», Yusif Əzimzadə.***
*İmran – Osman Hacıbəyov*

